İPƏK YOLU, No.4, 2023, səh.23-40

DOI: 10.30546/1810-911X.2023.4.23

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL RİFAHIN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ, XÜSUSİYYƏTLƏRİ VƏ İSTİQAMƏTLƏRİ: RETROSPEKTİV VƏ PERSPEKTİV BAXIŞ

**Emin Əlirzayev**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu, Bakı, Azərbaycan
e-mail: alirzayev@gmail.com

**Xülasə**. Məqalədə qloballaşma şəraitində Azərbaycan Respublikası timsalında sosial rifahın inkişafının başlıca mərhələləri, xüsusiyyətləri və inkişafının əsas istiqamətlərinə, sosial rifahının yüksəldilməsi problemlərinin əsas istiqamətlər və amillər üzrə təhlilinin iqtisadi rakursdan əsaslarına baxılmışdır. Mövcud şəraitdə prioritetlər müəyyənləşdirilməklə mülahizələrin əlaqədar amillərin dinamikası üzərində riyazi-statistik təhlil metodları əsasında əsaslandırılması aparılmış, prospektiv islahat imkanları nəzərdən keçirilmişdir.

**Açar sözlər:** Sosial rifah, sosial rifahın yüksəldilməsi, yoxsulluq, sosial müdafiə, sosial müdafiə sistemi, sosial təminat.

## THE MAIN STAGES, CHARACTERISTICS AND DIRECTIONS OF THE DEVELOPMENT OF SOCIAL WELFARE IN THE REPUBLIC OF AZERBAIJAN: RETROSPECTIVE AND PERSPECTIVE VIEW

**Emin Alirzayev**
*Azerbaijan State Economic University, Baku, Azerbaijan*
*National Observatory on Labour Market and Social Protection Affair, Baku, Azerbaijan*

**Abstract.** The main stages of the development of social welfare in the example of the Republic of Azerbaijan, its characteristics, the main directions of its development, the basis of the analysis of the problems of improving social well-being by the main directions and factors from the economic point of view was considered in the article. In the current conditions, priorities were determined, considerations were justified on the basis of mathematical and statistical analysis methods on the dynamics of related factors and prospective reform possibilities were considered.
**Keywords:** Social welfare, improvement of social welfare, poverty, social protection, social protection system, social security.

## ОСНОВНЫЕ ЭТАПЫ, ХАРАКТЕРИСТИКИ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СОЦИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ: РЕТРОСПЕКТИВНЫЙ И ПЕРСПЕКТИВНЫЙ ПОДХОД

**Эмин Алирзаев**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*
*Национальная Обсерватория по Вопросам Рынка Труда и Социальной Защиты, Баку, Азербайджан*

**Резюме.** Основные этапы развития социального благосостояния на примере Азербайджанской Республики, его характеристики, основные направления развития, основы анализа проблем улучшения социального благосостояния по основным направлениям и факторам со стороны В статье рассмотрена экономическая точка зрения. В сложившихся условиях были определены приоритеты, обоснованы соображения на основе методов математического и статистического анализа о динамике сопутствующих факторов и рассмотрены перспективные возможности реформирования.
**Ключевые слова:** Социальное благосостояние, улучшение социального благосостояния, бедность, социальная защита, система социальной защиты, социальное обеспечение.

## 1. Giriş

Dövlətin sosial siyasəti, cəmiyyətin sosial-iqtisadi şəraitinin tənzimlənməsini əhatə edən tədbirlər məcmusudur. Dövlətin sosial siyasəti, dövlətin hər bir cəmiyyətdə cəmiyyətin idarə olunmasında məqsədlərinə və ondan irəli gələn vəzifələrə uyğun olaraq həyata keçirdiyi ümumi siyasətin mühüm tərkib hissəsidir.

Sosial siyasət dövlətin məqsədlərinə uyğun olaraq iqtisadi inkişafın əsas təminatçısı hesab olunur. Dövlətin əsas güc mənbəyi olan iqtisadi inkişafa nail olmaq fərdin və ya vətəndaşın mənafeyini təmin etməklə bütövlükdə cəmiyyətin mənafeyini təmin etmək yolu kimi görünür, çünki fərd cəmiyyətin hərəkətverici qüvvəsi kimi iqtisadi inkişafın mərkəzində durur.

Azərbaycanda dövlət institutlarının formalaşması və idarə olunması müasir sosial-iqtisadi sistemlərin fəlsəfəsinə, sosial ədalətə, sosial bərabərliyə, sosial müdafiə və təminat hüquqlarının müdafiəsinə və digər mütərəqqi prinsiplərə əsaslanır ki, bu da sosial rifahı və onun tənzimlənməsini dövlət siyasətinin və həyata keçirilən sosial müdafiə proqramlarının prioritetlərinə çevirir. Bu məqamların həyata keçirilən sosial siyasətin əsas tərkib hissəsi olaraq nəzərə alınması sovet idarəetmə sisteminin süqutundan sonrakı dövrdə müstəqillik əldə etdikdən sonra dövlət idarəçiliyi baxımından uzunmüddətli hesab edilə bilməyən bir zaman kəsiyində müsbət səmərəli nəticələri və əhalinin sosial-iqtisadi problemlərinin real həlli mexanizmləri ilə ölkəmizin sosial dövlət kimi möhkəmlənməsinə və qısa müddətdə əhalinin sosial rifahının hərtərəfli istiqamətdə inkişafına əhəmiyyətli ölçüdə imkanlar yaratmışdır.

Ölkədə sosial-iqtisadi inkişafın hazırkı qlobal sosial və iqtisadi inteqrasiya şəraitində daimi xarakter daşıyan və tənzimləmə tələb edən sosial rifahın növbəti prioritetlərinin seçilməsi üçün prospektiv baxışda problemlərin əsaslı elmi-nəzəri təhlili və gəlinən nəticələrə əsaslanaraq perspektivə hesablanmış inkişaf konturlarının müəyyənləşdirilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir.

## 2. Sosial rifahın inkişafının əsas mərhələləri və xüsusiyyətləri

1980-1990-cı illərin sonu dünya sosialist sisteminin dağılması və bu sistemə daxil olan ölkələrdə bazar iqtisadiyyatına keçid ilk növbədə işsizlik və yoxsulluğun artması, əmək haqqının kəskin azalması ilə müşayiət olunurdu. 1980-ci illərin sonlarından etibarən Ermənistan SSR-in Azərbaycanın ərazi bütövlüyünə qarşı təcavüzü, 1990-cı illərin əvvəllərindən güclənən müharibə şəraiti, 1 milyondan artıq sayda qaçqın və məcburi köçkünün olması bu sosial-iqtisadi böhran vəziyyətini multiplikativ effektdə daha da çətinləşdirmişdir. Belə bir şəraitdə sistemlilik tələb edən sosial müdafiə sisteminin yaradılmasından danışmaq mürəkkəb məsələ idi. Əhali ehtiyaclarının kompensasiya və qrantlar hesabına ödənilməsi çıxış yolu kimi görünürdü.

Ölkəmizin 1991-ci ildə keçmiş SSRİ-dən müstəqilliyini əldə etdikdən sonra əhalinin sosial müdafiəsinin həyata keçirilməsi üzrə münasibətlər sistemi köklü şəkildə yenidən qurulmalı idi. Artıq onilliklər boyu köhnəlmiş sosial-iqtisadi münasibətlərin bazar iqtisadi prinsipləri ilə iqtisadiyyatın dövlət tənzimlənilməsinə keçirildiyi və iqtisadi baxımdan o qədər də uzun müddət hesab edilməyən əsrin üçdə biri müddətindən bir qədər artıq müddətdə sosial siyasətin çətinliklər, boşluqlar, bu və ya digər çatışmazlıqlarla da müşayiət olunsa da, bu müddət ərzində sosial siyasətin dövlət idarəetməsinin prioritet istiqaməti olaraq müəyyən edilməsi, dövlətçilik doktrinasının sosial dövlət fəlsəfəsi üzərində köklənməsi və yeni əsaslarla yaranan iqtisadi imkanların sosial təminat və müdafiəyə yönəldilməsi, demək olar ki, dövr ərzində keçmiş üsul-idarəsindən qalmış təsisatların yeni iqtisadi şərtlərə transformasiyasının ən azından minimal əhali tələbləri səviyyəsində təmin edilməsinə imkan vermişdir.

Azərbaycanın dövlət müstəqilliyi əldə olunduqdan sonra inzibati-amirlik sisteminə əsaslanan və vətəndaşların fərdi maraqlarının prioritet olmadığı idarəetmə sisteminin çökməsi ilə əvvəlki idarəetmə təsisatları, o cümlədən sosial müdafiə və təminat sistemi tam şəkildə funskiyasını itirmişdi. Postsovet məkanı arealına nəzərən qurulmuş bütün sahələrdə iqtisadi münasibətlərin qırılması istehsalın dayanmasına səbəb olmuş, minimal istehlak mallarının kəskin defisitliliyi mühitini yaratmış, bu fonda dövriyyədə olan valyutanın da günbəgün bazar dəyərini itirməsi əhalinin rifah halının acınacaqlı vəziyyətini şərtləndirmişdi. Bu halda ümumi böhranlı sosial-iqtisadi vəziyyətin inikasında sosial müdafiə sistemi, o cümlədən sosial təminat və xidmət müəssisələrinin də əhali rifah halına tənzimləyici təsirini tamam itirir, yoxsulluq ən təhdidverici problem olaraq iqtisadiyyatın bərpası ilə bağlı stimulları da aradan qalıdırırdı.

Belə olan şəraitdə, yeni iqtisadi sistemə keçid dövründə sosial siyasətin inkişaf strategiyasının əsas istiqaməti kimi sosial müdafiə və sosial təminatın dövlət siyasətinin tərkib hissəsi kimi seçilməsi və artan sosial problemlərin zərərli təsirlərinin qarşısının alınması üçün bu sahədə kompleks qərarların və əməli addımların atılması dövlət quruculuğu zəncirinin qısa müddətdə yaxşı idarəçiliyin qurulmadığı inkişaf etməkdə olan ölkələrdə olduğu kimi Azərbaycanda da yoxsulluğun qarşısını almağa kömək etdi və sosial müdafiəyə əsaslanan sistemli sosial-iqtisadi proqramların, o cümlədən sosial müdafiə islahatlarının həyata keçirilməsi sosial rifah baxımından minimal təminat üçün imkanlar yaratdı. Siyasət məqsədyönlü müəyyənləşdirilməsi ölkədə sosial cəhətdən həssas qrupların vəziyyətinin yaxşılaşdırılmasını, pensiya və müavinətlərin, kompensasiyaların dinamik artımını, habelə sosial müdafiənin digər sahələrində müxtəlif xidmətlərin və proqramların tətbiqini və sosial müdafiənin yeni və müasir standartlarının formalaşdırılmasını sürətləndirdi.

Artıq 1992-ci ildə müəssisə və təşkilatların sosial sığortaya ayırmalarına və onların məqsədyönlü xərclənməsinə nəzarəti gücləndirmək, əhalinin sosial müdafiəsi sahəsində olan paralelçiliyi ləğv etmək məqsədi ilə "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Azərbaycan Respublikasının Pensiya Fondu və Azərbaycan Respublikasının Sosial Sığorta Fondu bazasında Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu

yaradıldı ki, bununla respublikanın müəssisə və təşkilatlarının sosial sığortaya ayırmalarının tam həcmdə Dövlət Sosial Müdafiə Fonduna daxil olması qanunvericiliklə müəyyənləşdirildi [1].

Bu dövrdə aprılan islahatlarla iqtisadi potensialın bazar iqtisadiyyatına və etibarlı sosial müdafiə sisteminə keçid dövründə baş verən proseslərin əhalinin rifahına mənfi təsirinin minimuma endirilməsi zərurəti milli iqtisadiyyatın sosial prinsiplər əsasında qurulmasına səbəb oldu.

1993-cü ildən başlayaraq dövlət suverenliyinin yenidən qurulmasının ilk illərində hökumət səviyyəsində yeni iqtisadi sistem çərçivəsində xalqın maraqları istiqamətində dəyişikliklər aparılması vacibliyininin strateji məqsəd kimi dərk edilməsi, xüsusən ilk növbədə əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin təmin edilməsini dövlətin strateji məqsədinə çevirmişdir.

Bazar iqtisadiyyatına və etibarlı sosial müdafiə sisteminə keçid dövründə real iqtisadi vəziyyətin əhalinin rifahına mənfi təsirinin minimuma endirilməsi zərurəti islahatların profilini müəyyənləşdirdi ki, bunu da milli iqtisadiyyatın sosial prinsiplər əsasında qurulmasının şərtləndirilməsinin əsası olaraq qəbul etmək olar.

Bu transformasiya zamanı sosial müdafiə sistemi yaradılanadək əvvəlki dövlət sosial təminat sisteminin yeni iqtisadi münasibətlər sisteminin tələblərinə uyğun saxlanılması qərarının qəbul edilməsi islahatların müəyyən aztəminatlı əhali qrupları üzrə vətəndaşların həyat səviyyəsinə mənfi təsirinin yumşaldılmasında mühüm rol oynamışdır.

Bu transformasiya yolu sosial sahədə idarəetmə və islahatlılıq kompetensiyası nöqteyi-nəzərdən həmin vaxt bazar iqtisadiyyatına keçidə münasibətdə digər ölkələr üçün nümunə kimi qəbul edilə bilərdi. Beləliklə, sosial rifah göstəricilərinin çox qısa müddətdə əyani şəkildə yaxşılaşmasının baş verməsi özünü əhalinin gündəlik həyat keyfiyyətində göstərmişdir ki, bu da özlüyündə həyata tutulmuş strateji xəttin və sosial proqramların kifayət qədər sistemli və kompleksliliyi şəraitində baş verə bilməsi ilə əlaqələndirilə bilər. Eyni prinsiplərlə idarə olunan və sonradan müstəqillik qazanan postsovet ölkələri arasında yeni iqtisadi imkanların və açıq bazar şəraitinin ölkəyə gətirdiyi valyuta axınının, istehsalın qurulması və gəlir yaradılması prosesinin üstünlüklərindən optimal istifadə əsasında əhalinin sosial müdafiəsinə yönəldilməsinin reallaşdırılması baxımından Azərbaycan qabaqcıl sıralardadır.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması respublikada iqtisadiyyatın inkişafı üçün yeni maliyyə imkanları açmaqla, sosial məqsədlərin reallaşdırılması üçün da fundamental imkanlar yaratmış oldu.

1995-ci ildə qəbul olanan müstəqil Azərbaycan Respublikasının Konstitusiya Aktında ölkə vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq müəyyənləşdirilməsi, Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, layiqli həyat səviyyəsinin təmin olunmasını özünün strateji dövlət marağı olaraq

müəyyənləşdirməsi əhalinin sosial müdafiə və təminatını dövlət başlıca məqsədləri səviyyəsinə qaldırmışdır ki, bu da ölkədə sosial siyasətin və onun əsas mexanizmi kimi sosial müdafiə və təminat sahəsinin inkişafı və yaxşılaşdırılmasını daimi prioritetə çevirmişdir.

Bu prioritetlərin reallaşdırılması istiqamətində isə dövlət səviyyəsində əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı qarşıya qoyulan hədəflər istiqamətlərində bütün aidiyyəti dövlət qurumları və təşkilatlarının məsuliyyət çərçivələrinin və konkret hədəf nəticələrinin müəyyənləşdirilərək, dövlət proqramları səviyyəsində koordinasiyalı şəkildə ardıcıl lahiyələrin icrası kifayət qədər qısa müddət ərzində əhalinin rifah halının hiss olunacaq dərəcədə normallaşdırılmasını və stabil məcraya salınmasını təmin etdi (halbuki, Dünya Bankının hesablamalarına görə, Şərqi Avropa və MDB ölkələrində 1988-1994-cü illər arasında yoxsulluq həddində yaşayan insanların nisbətinin 4 faizdən 32 faizə yüksəldiyi də qeyd edilirdi) [2].

Bu islahatların real nəticələrinin bariz nümunəsi kimi, 1995-2003-cü illər ərzində ölkə əhalisinin əhəmiyyətli bir hissəsini əhatə edən pensiyaçılara təyin olunmuş pensiyaların orta məbləği 10 dəfədən çox artdı ki, bu da qeyd edilən əsaslarda sistemin sonradan genişləndirilməsi əlaməti kimi qiymətləndirilə bilər.

Minilliyin əvvəlində dünya liderləri yekdilliklə 2015-ci ilə qədər yoxsulluq və aclıq, gender bərabərsizliyi, ətraf mühitin deqradasiyası və HİV/QİÇS ilə mübarizə aparmaq, eyni zamanda təhsil, səhiyyə və təmiz suya çıxışı yaxşılaşdırmaq öhdəliyi götürdülər. Minilliyin Bəyannaməsi ilə müşayiət olunan genişmiqyaslı öhdəliklər Minilliyin İnkişaf Məqsədlərində (MİM) tərəqqinin monitorinqi üçün 8 məqsəd, 60 göstərici və 21 hədəflə ehtiva edilmişdir. MİM-lər bütün dünyada birgə fəaliyyətə təkan verdi və 1 milyarddan çox insanı ifrat yoxsulluqdan çıxarmaq kimi bir çox sahələrdə təsirli nəticələrə gətirib çıxardı [3].

Bu öhdəliyi yerli şəraitə uyğun yerinə yetirmək üçün Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2003-cü il tarixli 854 nömrəli Sərəncamı ilə 2003-2005-ci illəri əhatə edən "Yoxsulluğun azaldılması üzrə Dövlət Proqramı" təsdiq edilməklə icra edilmişdir.

Ölkəmizdə sosial problemlərin, o cümlədən yoxsulluq probleminin həlli istiqamətində "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" xüsusi əhəmiyyətə malik olmuşdur. Həmin Dövlət Proqramının həyata keçirilməsi nəticəsində 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə endirilmişdir. Sonrakı illərdə bu istiqamətdə nailiyyətlər daha da artırılmış və 2007-ci ilin axırına yoxsulluq səviyyəsi 15,8 faiz təşkil etmişdir [4].

Bu proqramın ümumi məzmunundan da belə bir fikir yürütmək mümkündür ki, yoxsulluq probleminin həlli üçün müxtəlif sosial-iqtisadi problemlərin həllinin vacib olmasının, xüsusilə də məşğulluq, sosial yardım, pensiya və sosial müavinət təminatı kimi sosial müdafiə mexanizmlərinə mühüm önəm verilməsinin strateji istiqamətlər olaraq seçilməsinin məqsədəuyğunluğu nəticələrin müsbət indikatorlarla öz əksini tapmasında göstərmişdir

Yoxsulluğa qarşı mübarizənin ikinci mərhələsi kimi Azərbaycan Respublikası vətəndaşlarının rifah halında bu yüksəlişi davam etdirmək məqsədilə 2008-2015-ci illər üçün

Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramı hazırlanıb həyata keçirilmişdir.

Cədvəldən göründüyü kimi, 2015-ci ildə yoxsulluğun səviyyəsi 2008-ci ildəki 13,2%-dən 2015-ci ildə 4,9%-ə qədər azalmışdır ki, bu da özlüyündə əhəmiyyətli təcrübədir (Cədvəl.1):

**Cədvəl 1.** Yoxsulluq həddi və yoxsulluq səviyyəsi (faizlə)

| | 2001 | 2005 | 2008 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yoxsulluq həddi, manat | 24.0 | 42.6 | 78.6 | 135.6 | 148.5 | 165.7 | 175.2 | 185.5 | 194.9 | 204.7 | 229.6 |
| Yoxsulluq səviyyəsi, faizlə | 49.0 | 29.3 | 13.2 | 4.9 | 5.9 | 5.4 | 5.1 | 4.8 | 6.2 | 5.9 | 5.5 |

**Mənbə:** AR Dövlət Statistika Komitəsi

Azərbaycanda yoxsulluğun azaldılması təcrübəsinin əsas statistik nəticələri onu təsdiqləməyə əsas verir ki, sosial rifahın əsas problemi olan - yoxsulluğun aradan qaldırılması ilə bağlı proqramlı yanaşmanın olması labüd əhəmiyyətlidir, xüsusilə sosial müdafiə sisteminin yoxsulluğa qarşı mübarizədə aparıcı mexanizm kimi qəbul olunmsı və onun təkmilləşdirilməsi yollarının axtarılması düzgün seçimdir. Yoxsulluğun qarşısının alınması üçün dünya təcrübəsinə də əsasən, eyni zamanda Azərbaycan modelində də öz təsdiqini tapdığı kimi, sosial müdafiə mexanizmlərinin tətbiqi ən zəruri mexanizm kimi özünü göstərir.

Bütövlükdə, sosial müdafiə sisteminin və onun aparıcı komponenti olan pensiya sisteminin inkişafı öz növbəsində hər bir ölkədə yoxsulluğun azaldılmasında, sosial və maddi rifahın təmin olunmasında mühüm rol oynayır.

Bu səbəbdən də Azərbaycan kimi inkişaf strategiyasını sosialyönümlü şəkildə müəyyən edən bir dövlət üçün eyni zamanda, demək olar ki, bütün kateqoriyalardan insanları əhatə edən sosial müdafiə sisteminin təkmilləşdirilməsi üçün ilkin sosial rifah tədbiri olaraq yoxsulluqla mübarizənin seçilməsi ötən inkişaf dövrü ərzində prioritetlərin kifayət qədər əsaslı müəyyənləşdirilməsini göstərməkdədir.

## 3. Azərbaycanda sosial rifahın inkişafının əsas istiqamətləri

Ölkədə sosial sahənin dövlət tənzimləmə obyekti kimi kompleks inkişafı həm də bu sferanın əsasını təşkil edən və bu sahələrlə qarşılıqlı əlaqədə olan əhalinin artan, yeni formalar və təkmilləşdirmə ehtiyacları ilə daha da mürəkkəbləşən tələbatına uyğun olaraq bu tənzimləmənin xarici təsiridir.

Son illər dövlətin hərtərəfli sosial siyasətinin özəyi kimi, xüsusilə sosial müdafiə sahəsində aparılan islahatlar əhalinin sosial müdafiəyə olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynamışdır.

Xüsusilə ən qabarıq və təbii olaraq ictimai maraqlara cavab verən - pensiya təminatı sahəsində əldə olunan nailiyyətlər, o cümlədən pensiyaların dinamik artırılması, sosial müavinətlərin, pensiya və kompensasiyaların artırılması, iqtisadi inkişafın nəticəsi olaraq gəlirlərin artması sosial siyasətin səmərəliliyini də artırmaqla ümumi sosial-iqtisadi inkişafa nail olunmasına müsbət töhfə vermişdir.

Qlobalizasiya şəraitində Azərbaycan iqtisadiyyatı da dünya iqtisadiyyatının tərkib hissəsi olmaqla qlobal səviyyədə baş verən sosial-iqtisadi proseslər, böhranlar və tendensiyalar ölkə iqtisadiyyatına da təsirlidir. Müasir sosial və iqtisadi münasibətlər şəraitində istehsal proseslərinin davamlılığının təmin olunması, mübadilə və istehlakın təmin olunması və bu əsasda həyat səviyyəsinin saxlanılması və daha da yaxşılaşdırılması ilə sosial rifah halının yerli tələblər nəzərə alınmaqla və beynəlxalq tendensiyalara uyğun yüksəldilməsi özlüyündə zəruri problem olaraq ortaya çıxır.

Hazırkı şəraitdə isə dövlət idarəetmə aparatı qarşısında davamlı məsələ olaraq duran - sosial rifahın təmin olunması problemi qlobalizasiyanın dərinləşdiyi, insanların sosial-mənəvi baxış və tələblərinin yenidən formalaşması prosesinin sürətləndiyi, qlobal çağırışların da sosial siyasətin, sosial müdafiə və təminat mexanizmlərinin reallaşdırılmasında nəzərə alınmasını zərurətə çevirir.

Bu baxımdan Azərbaycanda sosial rifahın təminatçısı kimi, sosial müdafiə sisteminin tarixi inkişaf yoluna əsaslanaraq, onun formalaşmasının əsaslarına strateji baxımdan yanaşılması və qiymətləndirilməsi, Azərbaycanda sosial müdafiə sisteminin hazırkı inkişaf səviyyəsinə nail olunması ilə bağlı islahatların mühüm istiqamətləri və nəticələrinin verilməsi tədqiqat əhəmiyyəti kəsb edir.

Respublikada sosial müdafiə ilə bağlı əsas hadisələri sadalamaq və vurğulamaqla Azərbaycanda sosial müdafiə sisteminin və onun əsas həlqəsi kimi, o cümlədən sığorta-pensiya sisteminin (o cümlədən pensiya və müavinətlərlə təminatın) inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi və Azərbaycanda sosial rifahın daha da yüksəldilməsi üçün islahatların aparılması baxımından nəzərdə alınmalı olan strateji əsas məqamların göstərilməsi, bunun üçün isə rifah iqtisadiyyatının nəzəri əsasları və prinsipləri üzərində milli qanunvericilik bazası, açıqlanan rəsmi məlumatlar və rəqəmlərə əsaslanan hesablamalardan istifadə edilməsi vacib hesab edilir.

Bütün ölkələrin milli pensiya sistemlərinə təsir göstərən qlobal tendensiyalar, çağırışlar, amillər və müxtəlif hadisələr nəzərə alınmaqla sosial müdafiənin əsasını təşkil edən qarşılıqlı əlaqədə olan pensiya sistemi ilə bu sahədə beynəlxalq nəzəriyyələrə uyğun sosial sığorta və pensiya sistemlərinin tənzimlənməsi ötən illər ərzində ölkəmizdə sığorta-pensiya sistemində aparılan islahatların əsas prioritetləri olmuş və bu məqsədlə dövlət proqramlarının ardıcıl həyata keçirilməsinə və normativ-hüquqi bazanın yaradılmasına zəmin yaratmışdır.

Bu gün dünyada sığorta və pensiya sahəsində fəaliyyət göstərməklə pensiya təminatı ilə məşğul olan milli sosial müdafiə qurumlarının üzv olduğu beynəlxalq təşkilatlar platformasında əldə olunmuş təcrübə mübadiləsi imkanları ölkələrin sosial müdafiə sistemlərini

təkmilləşdirilməsi üçün, həmçinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (Nazirlik) tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (bundan sonra - DSMF) da üzv olduğu dünyanın 158 dövlətinin 330 qurumunu şəbəkəsində birləşdirən Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA/ing. ISSA), habelə postsovet ölkələrinin milli sosial müdafiə orqanlarının üzv olduğu Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyası idarəetmə səviyyəsində qabaqcıl təcrübələrin öyrənilməsi və növbəti islahatların işlənilməsi üçün əlavə təcrübə bazası imkanları yaratmaqdadır [5, 6].

Azərbaycan Respublikası kontekstində sosial rifahının təmin olunması mexanizmi olaraq təcrübə əsasında yoxsulluqla mübarizənin nəzəri-metodologiya problemlərinin öyrənilməsi və yoxsulluğa qarşı mübarizənin sosial müdafiə sisteminin təkmilləşdirilməsində aparıcı amil kimi nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazmdır ki, ötən dövr ərzində respublikamızda bütün regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların sürətli və tarazlı sosial-iqtisadi inkişafı, əlverişli biznes və investisiya mühitinin gücləndirilməsi, sahibkarlığa hərtərəfli dəstək verilməsinin proqramlı və kompleks aparılması sosial müdafiə sisteminin və insanların sosial rifahının yaxşılaşdırılmasına imkanlar açmışdır.

İstənilən ölkədə yoxsulluğun aradan qaldırılması məqsədilə mühüm tədbirlərin görülməsi üçün ilk növbədə insanların həyat səviyyəsi ilə bağlı mövcud iqtisadin vəziyyətin, əhalinin cari sosial-iqtisadi problemlərinin araşdırılması və təhlil edilməsi zəruri əhəmiyyətlidir. Bu məqsədlərlə dövlət proqramlarının tərtib edilməsi effektiv metod hesab olunmaqla, aşkar edilmiş problemlər və səbəblər əsasında məqsədlərin, strateji hədəflərin, gözlənilən nəticələr və həyata keçiriləcək planların qrafiki ardıcıllıqla müəyyən edilməsi, problemin həlli üçün əsas məsələlərdən biri olaraq, icraçıların və onların vəzifələrinin dəqiq müəyyənləşdirilməsi tələb olunur. Belə ki, konkret istiqamətlərin müəyyən edilməsini özündə əks etdirən xüsusi dövlət proqramlarının icrası yolunu, müvafiq dövlət orqanlarının onlar üçün müəyyən edilmiş müəyyən vaxtlarda yerinə yetirilməsi nəzərdə tutulan vəzifələrin bölgüsünü əks etdirən Tədbirlər Planı formasında əlavə sənədin təsdiq edilməsi Azərbaycan praktikasında tətbiq edilən yoxsulluğa qarşı hökumət səviyyəsində məqsədəuyğun hesab edilməklə ən çox müraciət edilən mexanizmlərdən başlıcası olaraq diqqəti cəlb edir.

Dövlət proqramının icrası dövründə qarşıya qoyulan məqsədlərin bütün sahələrini əhatə edən müvafiq dövlət aktları, qanunlar, fərmanlar və digər qanunvericilik aktları qəbul edilməli və eyni zamanda qüvvəyə minməlidir. Digər bir məqamı da qeyd etmək lazımdır ki, hədəflərə, məsələn, məcburi köçkünlər arasında məqsədyönlü məşğulluq səviyyəsinin dövlət proqramında qeyd olunduğu dərəcədə arzuolunan olacağına təminat olmamaqla yanaşı, məsələnin əsas məqsədi - hər hansı bir işin məqsədyönlü səviyyəsini qiymətləndirməkdir. İndikatorun sonunda

proqnozlaşdırılandan fərqlənmələr ehtimal olunan hesab edilməli və belə ölçmələrin real faydaları sonda kompleks olaraq qiymətləndirilməlidir.

Ev təsərrüfatları büdcəsi sorğusu məlumatlarının təhlili əsasında yoxsulluq riskinin əlaqəli olduğu yerli faktorların müəyyənləşdirilərək sistemləşdirilməsi proqram - strateji baxımından vacib hesab olunur.

Gəlirlərin həyat səviyyəsinin yaxşılaşdırılması vasitəsi olmaqla, yoxsulluğun azaldılmasına kömək edən yeganə amil olmaması nəzərdə saxlanılmalıdır.

Belə demək olarsa, yoxsulluğu orqanizmdə sönmüş və immunitetin zəiflədiyi vaxtlarda baş qaldıran və özünü göstərən bir xəstəlik hesab edərsək, vahid bir orqanizm olan milli iqtisadiyyatlar səviyyəsində başlıca ictimai rifah problemi - yoxsulluqla mübarizənin də davamlı mahiyyət daşıması zəruri əhəmiyyətli olmasını, hesab edirik ki, ifadə etmək mümkündür.

Yoxsulluqla mübarizədə sosial xidmətlərin göstərilməsində paralel irəliləyişlərə nail olmadan gəlir səviyyəsinin artırılması yoxsulluq problemini həll etməməklə yanaşı, körpə və uşaq ölümü, ana ölümü kimi demoqrafik faktorların, ərzaq təhlükəsizliyi və uşaqların qidalanması, yoluxucu xəstəliklərə yoluxma halları kimi sosial problemlərin, məktəbə davamiyyət və qeydiyyat səviyyəsi kimi təşkilati məsələlərin, məktəbdə təhsil nailiyyətlərinin nəticələri və digər təhsil məsələləri üzrə göstəricilərin belə monitorinqinin aparılması da sosial rifah sahəsinin inkişafı ilə bağlı nəzərə alınmalı olan məsələlərdədir.

Azərbaycanın sosial rifahın inkişafı ilə bağlı hadisə və göstəricilərin təhlili inkişaf meyllərini və imkanları başa düşməyə imkan verir.

Qeyd edək ki, qlobal məkanın tərkib hissəsi kimi yoxsulluqla mübarizədə də Azərbaycan qlobal səviyyədə müəyyən edilmiş strateji proqramların əsas prinsipləri üzrə müəyyənləşdirilmiş standartlar əsasında müəyyən öhdəlikləri yerinə yetirməklə, eyni zamanda yoxsulluqla mübarizədə müsasir yanaşmalar barədə məlumatlanır və yerli siyasətini həmin tələblərə uyğunlaşdırır. Hazırkı şəraitdə sosial rifah məqsədli proqramlar istənilən halda qlobal dayanıqlı inkişaf məqsədləri gözlənilməklə işlənilir və işlənilməlidir.

BMT və onun tərəfdaşları Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq istiqamətində çalışırlar. Bu tərəfdaşlıq nəticəsində Azərbaycan dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən 17 DİM-i, 88 hədəfi və 119 göstəricini prioritetləşdirmişdir. 2017 və 2019-cu illərdə iki Könüllü Milli Hesabat (KMH) hesabatını təqdim etməklə Azərbaycan 2019-cu ilədək MDB məkanında ilk olaraq iki KMH-nı təqdim edən ölkə olmuşdur [7].

Qeyd edək ki, BMT səviyyəsində DİM olaraq müəyyən edilmiş istiqamətlər - yoxsulluğa son, aclığa son, yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, gender bərabərliyi, təmiz su və sanitariya, sərfəli və təmiz enerji, layiqli əmək və iqtisadi artım, sənaye, innovasiya və infrastruktur, bərabərsizliyin azaldılması, dayanıqlı şəhərlər və icmalar, məsuliyyətli istehsal və istehlak, iqlim dəyişikliyinə qarşı mübarizə, dəniz ekosisteminin mühahizəsi, torpaq ekosisteminin mühafizəsi, sülh, ədalət və səmərəli institutlar, məqsədlər üçün tərəfdaşlıq kimi

dayanıqlı inkişaf məqsədlərini əhatə etməkdədir ki, beynəlxalq səviyyədə demək olar ki, hamılıqla razılaşdırılmış bu istiqamətlər mahiyyət etibarilə də **müasir dünyamızda və sosial rifahın əsas əlaməti kimi - həyat səviyyəsinin konseptul olaraq** qeyd edilən sahələr üzrə qarşılıqlı təsirli faktorların təsiri şəraitində formalaşan, əsasən iqtisadi amillərə əsaslanmasına baxmayaraq, çoxölçülü sahəvi aspektdə dinamik mahiyyətli kateqoriya mahiyyətini kəsb etməsi düşüncəsini möhkəmləndirməyə əsas verir.

Son olaraq təqdim edilmiş "Könüllü Milli Hesabat"la bağlı BMT-nin internet məlumatlarında hər kəs üçün ədalətli, və inklüziv davamlı inkişaf modelinin yaradılmasının Azərbaycan Respublikası üçün əsas prioritetlərdən biri olması, bu hesabatın 2030-cu illə bağlı gündəliyin qəbulundan və milli siyasət və inkişaf strategiyalarına inteqrasiyasından sonra Azərbaycanın təqdim etdiyi üçüncü hesabat olduğu, Dayanıqlı İnkişaf üzrə Milli Koordinasiya Şurası və İqtisadiyyat Nazirliyinin BMTİP-in (BMT-nin İnkişaf Proqramının) ölkə ofisinin dəstəyi ilə parlament, sahə nazirlikləri, ictimai qurumlar, qeyri-hökumət təşkilatları, özəl sektor və akademik institutlar daxil olmaqla müxtəlif maraqlı tərəflərlə məsləhətləşmələr yolu ilə bu hesabat prosesinə rəhbərlik etdiyi, Azərbaycanın 2021-2030-cu illəri əhatə edən bu yeni post-pandemiya və münaqişədən sonrakı dövrdə strateji mərhələyə qədəm qoyması, qlobal tendensiyaları və çağırışları qəbul edərək Azərbaycan hökumətinin ölkənin uzunmüddətli inkişaf vektorunu, sosial-iqtisadi və ekoloji vəziyyətə aparan yolları müəyyən etdiyi, Ermənistanla Azərbaycan arasında münaqişənin başa çatmasının təkcə Azərbaycan üçün deyil, həm də regionlar üçün yeni iqtisadi imkanlar yaratması, bu baxımdan işğaldan azad edilmiş və münaqişədən zərər çəkmiş ərazilərin bərpasının, yenidən qurulması və reinteqrasiyasının Azərbaycanın növbəti illərdə inkişaf prioritetlərinin əsas istiqamətlərindən biri olacağı, sonrakı onillik üçün 2030-cu ilə doğru Prezidentin fərmanı ilə təsdiq edilmiş gündəlik çərçivəsində Azərbaycanın öhdəliklərinə uyğun prioritetlərin aşağıdakılar olaraq müəyyən olunduğu göstərilmişdir [8]:

- davamlı inkişaf edən rəqabətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabət qabiliyyətli insan kapitalı və müasir innovasiyalar üçün məkan;
- azad edilmiş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və yaşıl inkişaf ölkəsi.

Göründüyü kimi, əslində bu strateji sənədin əsas məqsədi olaraq iqtisadi inkişafın sahəvi, regional və innovativ prizmada kompleks genişləndirilməsi və şaxələndirilmiş şəkildə sürətləndirilməsi son nəticədə də sosial rifahın yüksəldilməsinə xidmət istiqamətlidir və burada da əsas hərəkətverici qüvvə kimi əsas fokusun iqtisadiyyatın üzərinə gətirilməsi strateji olaraq doğru müəyyənləşdirməni göstərməkdədir. Belə bir şəraitdə isə qoyulmuş hədəflərə nail olmanın iqtisadi baxımdan ən optimal yollarının müəyyənləşdirilməsi isə sonrakı mühüm vəzifə və problem olaraq ortaya çıxır.

## 4. Azərbaycan Respublikası kontektstində sosial rifahının yüksəldilməsi problemlərinin əsas istiqamətlər və amillər üzrə təhlili

Sosial rifahın perpsektiv prioritet istiqamətlərinin müəyyənləşdirilməsi üçün mövcud vəziyyətin empirik qiymətləndirilməsi və bu əsasda daha geridə qalan problem istiqamətlərinin öyrənilməsi islahat əhəmiyyətlidir.

Azərbaycan Respublikasında da sosial rifah halının bu baxımdan qiymətləndirilməsinin aparılması növbəti inkişaf perspektinin müəyyənləşdirilməsi üçün əhəmiyyətlidir.

Sosial rifahın burada da təsvirinin verildiyi kimi, müasir şəraitdə əhatəli bir kateqoriya və meyara çevrilməsi nəzərə alınaraq onun iqtisadi əsaslı qiymətləndirmə meyarları ilə eynizamanlı şəkildə sosial sferada münasibətlərin digər sahələri üzrə də əlaqəli qiymətləndirilməsi getdikcə əhəmiyyət qazanmaqdadır.

Bu mənada ölkə timsalında Azərbaycanda sosial rifahın əlaqədar olduğu amillər qismində bir sıra göstəricilərin dinamikasını verməklə mövcud vəziyyətin riyazi-statistik metodlarla qiymətləndirilməsini məqsədəmüvafiq hesab edirik.

Müasir şəraitdə ölkədə mövcud olan bütün sosial müdafiə mexanizmlərinin fəaliyyətinin son nəticəsi kimi, sosial rifahın yüksəldilməsi üçün zəruri infrastruktur elementlərinin başında əhalinin savadlılıq səviyyəsinin yüksək olması rekvizit əhəmiyyətlidir. Bu amil sosial müdafiənin idarə edilməsi institutu üzərində sosial məsuliyyətliliyi və bu səbəbdən təkmilləşdirilmə ehtiyaclarını artırmaqla sistemin inkişafına, həmçinin irəli sürülən innovativ tədbirlərin və islahatların reallaşdırılması üçün mühüm təsirli amillərdən hesab olunmalıdır.

Birbaşa iqtisadi mahiyyətli olmayan elm, təhsil, mədəniyyət sahələri, eləcə də rabitə və kommunikasiya xidmətlərindən istifadə ilə bağlı göstəricilərin statistikası da ölkədə əhalinin sosial rifahının real vəziyyətini, baş verən tendensiyaları sezməyə imkan verən metodoloji yanaşmalardan hesab edilməlidir.

Məsələn, rəsmi statistik rəqəmlərə nəzər yetirsək, Azərbaycanda şəhər və kənd yerləri üzrə əmək qabiliyyətli və ondan yuxarı yaşda (15 yaş və daha yuxarı) olan əhalinin savadlılığı dərəcəsinin 100 faizə yaxın olduğunu və bu istiqamətdə gender və regional fərqlərin olmamasını görmək mümkündür ki, bu da sosial islahatların tətbiqi və ya başqa sözlə, mənimsənilməsi üçün münbit zəmin yaratmaqdadır.

Təhsilin əsas göstəriciləri üzrə dövlət statistikasının bəzi istiqamətlərinə sosial rifah və sosial müdafiə perspektivi baxımından nəzərə yetirdikdə, bir sıra nəzərəçarpan müxtəlif tendensiyaların baş verdiyini müşahidə etmək olar. Belə ki, sosial rifahın yüksəlməsi ilə bağlı olan, eyni vaxtda sosial rifahın yüksəlməsinə də təsir göstərən müsbət tendensiya olaraq, 1990-2021-ci illərdə əhalinin sayının təxminən 1,4 dəfə artdığı halda iqtisadiyyatın qeyri-dövlət sektorunun inkişafına paralel olaraq həmin illərdə 1995-ci ildən başlayaraq məktəbəqədər təhsil müəssisələrinin sayının 3-dən davamlı olaraq 137-yə qədər, ali təhsil müəssisələrinin sayının 1990-cı ildə 17-dən 2021-ci ildə 51-ə qədər yüksəlməsi (və burada azad rəqabət şəraitində

artımın, əsasən, dövlət ali təhsil müəssisələri ilə bağlı olması, özəl sektorun təşəkkülü dövrü hesab edilə biləcək 1990-cı illərin əvvəllərində yaranmış və tədricən əhali ehtiyacları və təhsil sisteminin tələbləri baxımından geridə qalan və dövrün tələblərinə cavab veməyən özəl ali təhsil müəssisələrinin azalması müşahidə edilməklə), ali təhsil müəssisələrində tələbələrinin sayının 1990-cı ildəki 105063-dən tədricən davamlı artmaqla 2021-ci ildə 212173 nəfərə çatması (və ya 2 dəfədən çox artması və burada qeyri-dövlət ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayının 1995-ci ildəki (ilkin) 12507 göstəricisindən 2021-ci ildəki 24186 nəfərə qədər (və ya 2 dəfəyə yaxın) yüksəlməsi müşahidə edilməklə) və onlardan qadınların sayının daha yüksək artım tempilə müvafiq olaraq 39807 nəfərdən 2021-ci ildə 104678 nəfərə yüksəlməsi (və ya 2,6 dəfədən çox artması), əhalinin hər 1000 nəfərinə ali təhsil müəssisələrində tələbələrin sayının illər üzrə 1990-cı ildəki 148 nəfərdən davamlı olaraq 211-dək yüksəlməsi, qeyd edilən dövr ərzində ali təhsil müəssisələrini bitirmiş mütəxəssislərin sayının illər üzrə 18235-dən 43409-a yüksəlməsi (və ya 2,4 dəfəyədək artması) diqqəti cəlb edən əsas göstəricilər olaraq hələ bir nümunədə - təhsil prizmasından istənilən halda əhalinin sosial rifahının yaxşılaşması ilə əlaqələndirilə bilər.

Belə ki, ali təhsil müəssilərində təhsil alan tələbələrin sayının əhali payında çoxaldığı halda, fikrimizcə, hesab etmək olar ki, bu, əhali kontingentinin eyni vaxtda birbaşa əmək bazarından uzaqlaşaraq əmək fəaliyyətləri və birbaşa gəlir əldə etmək imkanlarını təhsil müddətləri qədər ertələmələri meyli olaraq özündə maddi təminatlılıqla bağlılıq xüsusiyyətləri də ehtiva etməklə, bu və ya digər formada (məsələn, ailə (ev təsərrüfatları) gəlirlərinin artması və s. ilə bağlı) rifahın mövcudluğuna da işarə etməkdədir. Daha yüksək və intensiv təhsilə axının işçi qüvvəsinin əmək bazarına daxil olmasını, daha keyfiyyətli və ixtisaslı əmək təklifinin bazara daxil olmasıyla əmək məhsuldarlığının yüksəlməsini, qiymətəmələgəlmə, məcmu və yenidən bölüşdürülən əhali gəlirlərinin artımını formalaşdırılması potensialı baxımından əmək bazarının formalaşmasına və sosial müdafiənin əhatə dairəsini, onun maliyyə potensialını, sosial müdafiə ilə bağlı əhali ehtiyaclarını və strategiyalarının aktual və strateji istiqamətlərinin müəyyənləşdirilməsinə rəvac verməklə, onun inkişafına da zəncirvari asılılıqda təsir göstərir ki, bütün bu elementlər də ümumən sosial rifahı daimi formaşdırmaqda olan məsələlərdən hesab edilməlidir.

Eyni zamanda 1990-2021-ci illərdə olan dövr ərzində il sonuna peşə təhsili müəssisələrinin sayının 170-dən 99-dək tədricən azalması, həmin müəssisələrdə təhsil alanlarının sayının bu dövr ərzində 82188 nəfərdən 22749 nəfərədək kəskin azalması, o cümlədən peşə təhsili alan qızların sayının 33944-dən 5942-dək enməsi Azərbaycanda əmək münasibətlərinin inkişafına və əmək bazarının formalaşmasına birbaşa, nəticə etibarilə isə dolayı effektdə sosial rifaha mənfi təsir göstərəcək amillər olaraq qiymətləndirilməlidir.

Maddi - istehsalın təşkili, əsasən, peşə təhsilli kadrlar üzərində qurulmaqla, əmək bazarında peşə təhsilli kadrların artımı məhsuldarlığın artımına, texniki tərəqqinin baş verməsi

və innovasiyaların tətbiqi üçün yeni imkanların açılmasına, azad bazar rəqabəti şəraitində istehsal xərclərinin optimallaşmasına, davamlı iş yerlərinin yaradılması ilə məşğulluğun təmin olunmasına təkanverici təsirə malikdir ki, bu da sosial rifahla sosial rifah amili və istiqaməti olaraq təhsil arasında əlaqəni göstərən əlamətlərdəndir.

2010-2019-cu illərdə Azərbaycanda işsizlik səviyyəsi yoxsulluq həddi göstəriciləri ilə yaxın rəqəmlər göstərməklə orta hesabla 5,1 faiz təşkil etmiş, yalnız 2020-2021-ci illərdə işsizlik səviyyəsi göstəricisi bu illər üzrə müvafiq olaraq 7,2 və 6,0 faiz təşkil etmişdir ki, bu da qlobal koronavirus pandemiyasının təsirləri ilə əlaqələndirilə bilməklə qənaətbəxş qiymətləndirilə bilər. Halbuki pandemiya dövrü illəri də əhatə edilməklə 2010-2021-ci illər ərzində məşğul əhalinin mülkiyyət növləri üzrə sayında dövlət sektorunun payı 26,4 faizdən 22,4 faizədək azaldığı halda, qeyri-dövlət sektorunun payı 73,6 faizdən 77,6 faizədək artmışdır ki, bu da ölkədə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-dövlət sektorunda iqtisadi dövriyyənin artması, dəyər yaradılışı prosesinin sürətlənməsi, sahibkarlıq mühitinin yaxşılaşması ilə əlaqələndirilə bilinməklə, nəticə etibarilə özünü əhalinin sosial rifah halının təmin olunmasına da sirayət etməklə müsbət tendensiya olaraq qəbul olunur.

Sosial rifahın əsas elementlərindən olmaqla müasir dövrdə insanın həyat keyfiyyətinin əsas göstəricilərindən biri olaraq, sosial-mədəni ehtiyacların ödənilməsi də mühüm şərt istiqamətlərindən hesab edilir. Azərbaycan Respublikasında mədəniyyətin əsas statistik göstəricilərinin 1990-2021-ci illərdə dinamikası sosial rifahın inkişafı ilə bağlı, əsasən, keyfiyyət mahiyyətli dəyişkənlikləri xarakterizə etməyə imkan verir. Qeyd olunmalıdır ki, Azərbaycanda bu illərdə mədəniyyətin müxtəlif göstəriciləri arasında kütləvi kitabxanaların sayının qeyd edilən illərdə 4605-dən 2915-dək (və ya 37 faizədək), əhalinin hər nəfərinə düşən nüsxə sayının 6280-dən 3131-dək azalması (50 faizdən çox) azalması, konsert müəssisələrinin sayına münasibətdə konsertə gələn tamaşaçıların kəskin azalması kimi tendensiyalar bir çox hallarda daha çox sosial mənşəli məsələlərlə bağlı olsa belə, əhalinin mədəni ehtiyaclarının qarşılanması üçün əsas istiqamətlərdən olmaqla sosial rifahın keyfiyyəti nöqteyi-nəzərdən iqtisadi problemlərlə də bağlılığı baxımından sosial rifahın qiymətləndirilməsində nəzərə alınmalı olan amillərdən hesab edilə bilər. Bunun əksinə isə, misal olaraq, eyni dövrdə muzeylərin sayının 120-dən 240-a qədər, yəni tam 2 dəfə çoxalmasına baxmayaraq muzeylərə gələn ziyarətçilərin sayı göstəricisinin dinamika göstərməməklə əhalinin hər 1000 nəfərinə orta hesabla il üzrə 170 nəfər təşkil etmişdir ki, bu da bundan əvvəlki qeyd edilənlərlə münasibətdə düşündürücü məqam hesab edilir.

Sosial rifahla bilavasitə qarşılıqlıq surətində bağlı olan digər bir istiqamət olaraq həmçinin səhiyyənin inkişafının dəyərləndirilməsi və nəzarətdə saxlanılması əhalinin sosial rifahının sosial-iqtisadi inkişaf tsiklinin səmərəliliyinin artırılması, o cümlədən işçi qüvvəsi potensialının möhkəmləndirilməsilə əmək bazarının formalaşması, reproduktivliyinin təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə üçün yollar açmaqla istehsal imkanlarının artmasına şərait yaratması baxımından birbaşa surətdə sosial müdafiənin təmin edilməsi üçün mühüm əhəmiyyətli sosial sfera həlqəsi hesab edilir. Təsadüfi deyildir ki, səhiyyənin inkişafı

səhiyyə ilə sosial müdafiə və təminat sahəsinin kəsişməsi olaraq qiymətləndirilə bilən sosial-tibbi reabilitasiya sahəsinin də təşkili, idarə edilməsi və inkişafına təsirsiz ötüşməməklə, dövlətin maraq dairəsində olan idarəetmə istiqamətlərindən biri kimi qəbul edilir. Əlilliyi olan və sağlamlıq imkanları məhdud olan şəxslərin də cəmiyyətin tərkib hissəsi olaraq sosial inteqrasiyasının və inklüzivliyinin təmin edilməsi prinsipinin beynəlxalq səviyyədə hamılıqla sosial müdafiənin mühüm elementləri kimi qəbul edilərək təmin edilməsi də sosial müdafiədə və dolayısı ilə əhali rifahının səhiyyənin rolunu daha aydın açmağa imkan verir.

Bu baxımdan yalnız həyat səviyyəsinin iqtisadi qiymətləndirilməsi üçün istifadə edilən maktoiqtisadi göstəricilərlə qiymətləndirilmə aparılmasınının kifayət etməməsilə səhiyyə göstəricilərinin, həmçinin demoqrafik amillər baxımından qiymətləndirməyə alınması lokal ölkə modellərində sosial rifahın tədqiqində əsas şərtlərdən hesab edilməlidir. Səhiyyənin sahəsi və səhiyyə xidmətlərinin kəmiyyət və keyfiyyət baxımından genişlənməsinin kifayət qədər xərctutumlu olması, onun inkişafının maliyyətutumlu olması iqtisadi-maliyyə imkanları ilə mütənasib əlaqədə olmasının nəzərə alınması onu əhalinin sosial rifah səviyyəsinin qiymətləndirilməsindəki iqtisadi göstəricilərlə yanaşı, prioritet sahə olaraq nəzərə alınması vacibliyini üzə çıxarır.

Səhiyyənin müvafiq istiqamətlər üzrə göstəricilərinin müşahidəsi sosial müdafiə sahəsi ilə bağlı cari və prospektiv olaraq baş verən tendensiyaları başa düşməyə imkan verir ki, bu baxımdan sosial müdafiə siyasətinin formalaşdırılmasında müəyyənləşdirici mahiyyət kəsb edir.

Məsələn, Azərbaycanda 1991-2022-ci illərdə əhalinin 10 000 nəfərinə düşən həkimlərin sayının (son 3 ildə daha çox azalma görünməsinə baxmayaraq) orta hesabla il üzrə təxminən 35 nəfər ətrafında dəyişməsinə baxmayaraq, əhalinin hər 10 000 nəfərinə düşən orta tibb işçilərinin sayının 95,8-dən 53,1-dək nəfərədək (təqribən 44,8 faiz) azalması, xəstəxana müəssisələrinin sayının 731-dən 342-yə (təqribən 53,2 faiz) enməsi, əhalinin hər 10 000 nəfərinə düşən xəstəxana müəssisələrinin sayının isə daha çox – 99,9-dan 38,9-dək (61 faizdən çox) azalması, xəstəxana çarpayılarının ümumi sayında xəstə uşaqlar üçün çarpayıların sayının 12,4 mindən 4,3 minə düşməsi (təxminən 2,9 dəfə azalması), hamilə və zahı qadınlar üçün çarpayıların sayının 7,3 mindən 3,4 minədək enməsi (53,4 faiz azalma), əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayında ümumi tendensiyada baş verən azalma kəskin olmasa da, il üzrə orta hesabla 1705 təşkil etməklə bu göstəricinin tərkibində qadın məsləhətxanalarının və qadın məsləhətxanası olan müəssisələrin sayının 296-dan 106-ya qədər (64 faizdən çox) azalması, uşaq poliklinikaları, ambulatoriyaları və uşaq şöbəsi olan tibb müəssisələrinin sayının 738-dən 230-a enməsi (69 faizə yaxın azalma) qeyd edilən kifayət qədər uzun müddət ərzində davamlı azalma göstərməklə səhiyyənin təşkili ilə bağlı problemlərlə deyil, daha çox məsələnin iqtisadi problemlərlə əlaqələndirilməsini, xüsusən də səhiyyənin maddi-texniki ehtiyaclarının və əhalinin dövlət səhiyyə xidmətlərinə ehtiyacının lazımi

səviyyədə nəzərə alınmaması, səhiyyəyə dövlət büdcəsindən ayrılan vəsaitlərin bu baxımdan səhiyyə sferasının maddi-texniki tələbatını ödəməməsi, səhiyyə sahəsində əməkhaqqı səviyyəsinin aşağı olması səbəbindən tibb ixtisaslı məzunların və təcrübəli kadrların, o cümlədən orta tibb işçilərinin səhiyyə sferasında məşğulluğunun təmin olunmasında stimulların azalması gətirib çıxarması ilə başqa əmək fəaliyyəti sahələrinə meyl etməsi və s. ilə əlaqələndirilə bilinməsinə imkan verir (faktiki halda - təhlili yanaşdığımız qeyd edilən statistikanın mənbəyini təşkil edən – Dövlət Statistika Komitəsi (DSK) tərəfindən həmin statistika ilə bildirilən qeydlərdə tibb müəssisələrinin və xəstəxana çarpayılarının azalmasının səhiyyə sistemində aparılan islahatlarla, xəstəxana çarpayılarının və tibbi heyətin sayının azalmasının isə keçirilən islahatlarla əlaqədar olduğu qeyd edilmişdir). DSK tərəfindən iqtisadi fəaliyyət növləri üzrə orta aylıq əməkhaqqı göstəricilərinin 1999-2021-ci illər üçün açıqlanan dinamikasına əsasən, hesablamaq mümükündür ki, 1999-2018-ci illərdə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı göstəricisi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində əks etdirilən 19 ayrı istiqamət arasında hesabladığımız ədədi orta göstəricisinin cəmi 28,1-33,4 faizi arasında dəyişmələ, əksər hallarda həcminə görə kənd təsərrüfatı, meşə və balıqçılıq sahəsi üzrə göstəricidən əvvəl və ya sonra olmaqla son sıraları təşkil etmiş, yalnız 2019-cu 2021-ci illərdə bu nisbət nisbətən yaxşılaşaraq 44,1-dən 62,5-ə qədər yüksəlmişdir.

Bu isə beynəlxalq səviyyədə də qəbul olunduğu kimi, bir qayda olaraq, yüksək əməkhaqlarının verildiyi səhiyyə sferasındakı göstəricilərdən olduqca aşağı hesab edilir

Məsələn, üzv ölkələrinin əksəriyyətinin çox yüksək insan inkişafı indeksinə sahib yüksək gəlirli ölkələr olduğu və inkişaf etmiş ölkələr olaraq qəbul edildiyi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT/ing. OECD) 2017-ci il üzrə məlumatlarına əsasən, görmək mümkündür ki, inkişaf edən ölkələrdə tibb sahəsində ümumi həkimlər orta əmək haqqı göstəricisindən ən azı 2-3 dəfə çox maaş alırlar, mütəxəssislik və özünəməşğul fəaliyyətdə isə bu göstərici 4-5 dəfəyədək dəyişir [9].

Bunu isə sağlam, keyfiyyətli, yaradıcı və məhsuldar həyat, eyni zamanda əhali uzunömürlülüyə təkan verən və nəticə etibarilə əhalinin daha yüksək rifahını formalaşdıran başlıca faktorlardan biri kimi əhaliyə göstərilən səhiyyə xidmətlərinin səmərəli və daha keyfiyyətli təşkili və həyata keçirilməsi üçün büdcə - maliyyə şərtlərinin və bu məqsədlə cəlb edilən maliyyə - resurs imkanlarının artırılması istiqamətində dövlət səviyyəsində əsaslı olaraq yenidən nəzərdən keçirilməsinə, yaxud bu sahə üzrə ayrılan maliyyə vəsaitlərinin istifadəsi ilə bağlı mövcud mexanizmlərin köklü surətdə təftiş edilməsilə xərc - nəzarət mexanizmlərinin gücləndirilməsinə zərurət olması ilə də əlaqələndirmək olar.

DSK-nın da müvafiq statistik göstəricilərindən göründüyü kimi, 2021-ci ildə Azərbaycanda səhiyyənin maliyyələşməsi üçün dövlət büdcəsində nəzərə alınmış vəsait ÜDM-nin cəmi 1,48 faizini təşkil etmişdir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə olduqca aşağı göstərici kimi qəbul edilməlidir, belə ki, İƏİT statistikasına əsasən, hesablamaq mümkündür ki, 2015-2019-cu illərdə İƏİT üzrə müvafiq göstərici təxminən 6,5 faiz səviyyəsində olmuş, 2020-

ci ildən isə artaraq orta göstərici 7,4 təşkil etmişdir. 2021-ci ildə sözügedən göstərici 7,1 faiz təşkil etmişdir ki, bunu da qlobal koronavirus pandemiyasının təsirinin azalması ilə büdcə xərclərinin də azaldığı ilə əlaqələndirmək olar ki, bu hal da eyni zamanda əhalinin sosial rifah vəziyyətinin saxlanılması üçün büdcə maliyyələşmə çərçivəsinin miqyasının və çevik maliyyə idarəetmə yanaşmasının əhəmiyyətini vurğulamağa əsas verir [10].

Həmçinin iaşə dövriyyəsi üzərindən müvafiq qiymətləndirilmələri apara bilərik: Azərbaycanda iaşə dövriyyəsinin həcmi davamlı artım dinamikası ilə 1995-2022-ci illərdə 11 mln. manatdan 1586 mln. manatadək və ya 144 dəfədən çox; bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 5900-dən 23822 vahidədək və ya 4 dəfədən çox; iaşə obyektlərində oturacaq yerlərinin sayı isə 285,6-dan 1126-dək və ya 4 dəfəyə yaxın artmış, bu artımın da 99,9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür ki, hesab edirik ki, bu istiqamət üzrə dinamikanın izlənilərək təhlilini də ölkədə sosial rifahın qiymətləndirilməsi baxımından əhəmiyyətli hesab etmək olar. Belə ki, iaşə müstəvisində əhali xərclərinin artımını istənilən halda bütün mənbələrdən ev təsərrüfatları büdcələrinin imkanlarının genişlənməsindən, əhali ehtiyaclarının ierarxik mənada onların minimal baza tələbatlarının ödənilməsindən uzaqlaşması ilə əlaqələndirmək mümkündür.

Mənzillə təminatı da lokal şərtlər nəzərə alınmaqla sosial rifah baxımından təsirli amillərdən biri olaraq nəzərə almaq olar: Əhalinin mənzil şəraitinin DSK tərəfindən açıqlanılan əhali sayı dinamikası və 2000-2022-ci illərə dair göstəriciləri qeyd edilən illərdə ölkə əhalisinin sayının 26,4 faiz artdığı halda, bütün mənzil fondunun ümumi sahəsinin, əsasən, əhalinin xüsusi mülkiyyət hesabına olmaqla 112,4 mln. kv.m-dən 200,7 mln. kv.m-dək (78,5 faiz), orta hesabla əhalinin hər nəfərinə düşən mənzil sahəsinin 14,2 kv.m-dən 20 kv.m-dək (40,1 faiz), otaqların sahəsinin isə 9,3 kv.m-dən 13,4 kv.m-dək (44,1 faiz) artdığını göstərir ki, bu da rifahın qiymətləndirilməsi ilə bağlı mühüm istiqamətlərdəndir.

Ölkədə cinayətkarlığın səviyyəsi və hüquqpozmaların vəziyyəti sosial rifahı formalaşdıran komponentlərdən hesab edilməklə, dövlət statistikasına əsasən, 1993-2000-ci illərdə əhalinin hər 100 000 nəfərinə düşən cinayətlərin sayının 246-dan cəmi 307-yədək artdığını görmək olur ki, bu istiqamət üzrə bu və digər təfərrüatlı göstəricilər də ölkədə əhalinin ümumən rifah vəziyyətinin formalaşmasına təsirlidir.

Sosial rifahın digər komponentləri sırasında müasir şəraitdə əhalinin həyat şəraitinin formalaşmasını təmin edən elementlərdən biri - əhalinin su təchizatı ilə təminatı səviyyəsi ilə bağlıdır. 2023-cü ilin 2 iyun tarixində DSK vasitəsilə 2005-2022-ci illərə dair açıqlanan statistik göstəricilərə nəzər saldıqda su təchizatı sahəsindən verilmiş şirin suyun ümumi həcminin, su təchizatı müəssisələri tərəfindən istehlakçılara verilən şirin suyun həcminin bu illərdə azaldığı, çatdırılma zamanı su itkisinin artdığı, su ilə təchiz olunan əhalinin xüsusi çəkisinin bu dövr ərzində yalnız 41,6 faizdən 65,8 faizədək yaxşılaşdırıla bilindiyi müşahidə olunur.

Dövlət statistik məlumatlarından göründüyü kimi, sovet dövrü mövcud olmaqla 1990-cı ildə də hələ də fəaliyyəti dayandırılmamış ekoloji cəhətdən səmərəsiz istehsalın təsiri və sonrakı illərdə isə sahələr üzrə istehsalın tənəzzülü və yenidən təşkili mərhələsinə keçid ilə əlaqələndirə bilinməklə istilik effekti yaradan qazların atmosferə atılması ($CO_2$ ekvivalentində) vəziyyətində yaxşılaşma müşahidə olunsa da, 2010-cu illərdən etibarən ümumilikdə qiymətləndirdikdə tədricən mənfi nəticələrin alınması (xüsusilə energetika sahəsində) müşahidə edilməkdədir ki, bu da ilk növbədə səhiyyə və ekoloji aspektdən tibbi, sosial və iqtisadi problemlərə gətirib çıxarmaqla sosial rifaha təsiri olan və beynəlxalq təcrübədə sosial rifaha münasibətdə diqqət yetirilən istiqamətlərdəndir.

Sosial rifahın təşkilinin mahiyyət olaraq, eyni zamanda sosial rifahla bağlı fəaliyyət və xidmətlərin İKT-nin tətbiqi şəraitində aparıldığı və onun təşkilinin təkmilləşdirilməsi mexanizmi kimi istifadə olunma imkanları nəzərə alınmaqla ölkədə rabitə və kommunikasiya texnologiyalarından istifadə vəziyyəti də sosial rifahın formalaşmasına təsirli faktorlar sırasında qiymətləndirilməlidir. 2021-ci ildə ölkə əhalisinin sayının 10119,1 min nəfər təşkil etdiyi halda, mobil telefon abunəçilərinin sayı 10817,1 min nəfər təşkil etmişdir ki, bu da ən azından bütün əmək qabiliyyətli əhalinin mobil telefon rabitəsindən istifadə etdiyini deməyə əsas verir.

MDB ölkələrinin Beynəlxalq Statistika Komitəsinin MDB ölkələrində əhalinin həyat keyfiyyətinin 2018-2021-ci illər üzrə monitorinqinə dair açıqladığı ev təsərrüfatlarının seçmə üsulu ilə tədqiqi məlumatlara əsasən, 2021-ci ildə Azərbaycanda hər 100 ev təsərrüfatına orta hesabla 153 şəxsi kompyuter düşmüşdür ki, bu da postsovet məkanında bu istiqamətdə 2-ci sırada dayanan Rusiya Federasiyası üzrə müvafiq göstəricidən (126) 21,4 faiz çox olmuşdur [11].

Azərbaycanda internet şəbəkəsi istifadəçilərinin sayının 2018-2021-ci illərdə əhalidə payının 80 faizindən 87 faizinədək yüksəlməsi iş, sövdələşmə və xidmətlərin elektron platformalar üzərindən təşkili və aparılması üçün uyğun şərait yaratmışdır ki, bu da eyni zamanda sosial müdafiə xidmətlərinin təşkili ilə bağlı müraciət, təhlil, nəzarət, hesabatlılıq, məlumatlanma və digər mahiyyətlərdə xidmət proseslərinin elektron platformalardan daha rahat və bilavasitə məmur - vətəndaş kontaktı olmadan aparılması və onun genişlənməsi üçün imkanlar yaratması baxımından olduqca əhəmiyyətli hesab edilir. Xüsusilə qeyd etmək olar ki, sosial müdafiənin təşkilinin elektron platformaya keçirilməsi Azərbaycanda kifayət qədər uğurlu tətbiq oluna bilmişdir. Bu da istər şəxsi kompyuterlər, istərsə də mobil telefonlarda mobil tətbiqlər vasitəsilə proseslərin tətbiq edilməsində, təbiidir ki, infrastrukrur rolunu oynamışdır.

Nəqliyyat - lojistik məsələlərinin həlli belə sosial rifah baxımından əhəmiyyətli olmaqla, ölkədə ümumi istifadədə olan yolların uzunluğu 1997-2021-ci illər arasında 22,4 min kilometrdən 28,7 min kilometrə qədər (və ya 28,1 faiz) artırılmışdır ki, nəzərəçarpan artımların qeydə alındığı postsovet ölklərindən Rusiyada bu artım 175 faiz (və ya 2,75 dəfə çox), Belarusda isə 93,6 faiz (və ya 2 dəfəyə yaxın) olmuşdur ki, müasir şəraitdə bu göstərici də sosial rifahı formalaşdıran elementlər sırasında olması baxımından əhəmiyyətlidir.

**Nəticə.** Aparılan təhlil nəticələrini nəzərə alaraq ümumi, o cümlədən Azərbaycan modeli timsalında yanaşmada sosial rifahın inkişafı (tənzimlənməsi) ilə bağlı aşağıdakı məsələlərin nəzərə alınmasını məqsədəmüvafiq hesab edirik:

– təhlillərin nəzəri və statistik nəticələrindən də göründüyü kimi, müasir anlayışda sosial rifah konseptual olaraq sosial və iqtisadi həyatın müxtəlif istiqamətlərində bütünlükdə kompleks inkişafla bağlıdır;

– mahiyyətindən irəli gələrək, qəbuledilәndir ki, sosial rifahın əsas mexanizmi kimi - sosial müdafiənin inkişafı da onun gözlənilən əsas nəticəsi olan sosial rifahın yüksəldilməsinə münasibətdə təkcə iqtisadi fəaliyyət göstəricilərinin deyil, eyni zamanda cəmiyyət həyatının müxtəlif sferalarında ən azından ortamüddətli müddətlərdə ehtiyacların qarşılanması baxımından bir sıra zəruri hesab edilən fəaliyyət sferalarında da keyfiyyət dəyişikliklərinin baş verməsi hesabına reallaşa bilər;

– bu məqsədlə isə sosial rifahla bağlı nəticələrin və cari göstəricilərin vəziyyətinin yaxşılaşdırılması üçün kortəbii şəkildə iqtisadi inkişaf göstəricilərinin yaxşılaşmasını gözləmək kifayət etməməklə, dövlət səviyyəsində bütün müvafiq dövlət orqan və qurumlarının cəlb edilməsilə sosial-iqtisadi fəaliyyətin problemli və nöqsanlı hesab edilən müxtəlif istiqamətləri əhatə olunmaqla növbəti ortamüddətli dövrlər üzrə konkret dövlət proqramları müstəvisində konsepsiyaların qəbul edilməsi, keyfiyyətli və səmərəli icra, icraya nəzarət və monitorinq mexanizmlərinin tətbiqi və ya işlənilib hazırlanması hesabına qısamüddətli vaxt müddətləri üçün uğurlu nəticələrin alınmasına imkan yaradılması mümkündür.

## Ədəbiyyat

https://e-qanun.az/framework/7782
https://www.azerbaijan-news.az/index.php/posts/detail/sosial-mudafie-sisteminin-modernlesdirilmesi-69257
https://www.ilo.org/global/topics/millennium-development-goals/lang--en/index.htm (12.06.2023-cü ildə çıxarış)
https://e-qanun.az/framework/15399 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 15 sentyabr 2008-ci il, No.3043
https://socialprotection.org/connect/stakeholders/international-social-security-association-issa
http://www.apsf.ru/Main.shtml
https://azerbaijan.un.org/az/sdgs
https://sustainabledevelopment.un.org/memberstates/azerbaijan
https://www.oecd-ilibrary.org/sites/0acc1895en/index.html?itemId=/content/component/0acc1895-en
https://stats.oecd.org/index.aspx?DataSetCode=SHA